## Yay Məktəbi proqramı zamanı tədris olunacaq mövzular:

- Vergi Məcəlləsinə dair praktiki biliklər;
- Büdcə sistemi, vergi daxilolmalarının dövlət büdcəsinin gəlirlərinə təsiri mexanizmləri haqqında biliklər:
- Hüquqi və fiziki şəxslərin vergiyə cəlb edilməsi qaydaları:
- Vergi və mühasibat uçotu:
- Hüququn anlayışı, hüquq normaları, hüquq sistemləri və dövlətlə hüququn qarşılıqlı əlaqəsi haqqında ilkin anlayışlar:
- Vergi orqanlarında işə qəbul və xidmətkeçmə qaydaları;
- Komanda qurmaq bacarığı;
- İşə qəbul zamanı müsahibələrdə davranış qaydaları.

## Proqramın sonunda iştirakçılar əldə edəcəklər:

- Müəssisələrin vergi uçotunun aparılması üçün baza bilikləri;
- Mühasibat uçotuna dair baza bilikləri;
- İqtisadiyyata dair praktiki biliklər;
- Yumşaq bacarıqlar (Soft Skills)

***Proqramın sonunda iştirakçılara Vergilər Nazirliyinin Tədris Mərkəzinin sertifikatları təqdim olunacaqdır.***





Ünvan1:
Şamaxı rayonu Nağaraxana kəndi
Ünvan2:
Bakı şəhəri, Nərimanov rayonu,
Ağa Nemətulla 44
http://tedris.taxes.gov.az
Email: trainingcentre@taxes.gov.az
Tel: (+99412) 403-88-79



Vergilər Nazirliyinin Tədris Mərkəzi



# YAY MƏKTƏBİ

Vergilər Nazirliyinin Tədris Mərkəzi Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2002-ci il 5 iyun tarixli 90 nömrəli qərarı ilə yaradılmışdır.



Mərkəz Şamaxı rayonunun Nağaraxana kəndində, Böyük Qafqaz sıra dağlarına aid olan və dəniz səviyyəsindən 1500 metr hündürlükdə yerləşən ərazidə, ekoloji baxımdan əlverişli məkanda inşa edilmişdir.



Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzi gənclərin karyera hazırlığının təşkili, iqtisadiyyat və vergi sahəsində praktiki bilik və bacarıqların formalaşdırılması, potensiallı gənclərin vergi orqanlarında işləməyə həvəsləndirilməsi və asudə vaxtın səmərəli təşkil edilməsi məqsədilə

# YAY MƏKTƏBLƏRİ

təşkil edir.









İştirakçı sayı: Hər qrupda 18-25 nəfər
Hədəf qrupu:16-25 yaş arası Ali təhsil müəssisələrində təhsil alan və ya təhsil almış gənclər
Müddət: 5-10 gün
Məkan: Şamaxı rayonu Nağaraxana kəndi

Yay Məktəbi proqramına daxildir:
Gənclərin karyera hazırlığı məqsədilə praktiki mövzulara dair hər gün 2-4 dərs (hər biri 50 dəqiqə)

Şamaxı rayonunda yerləşən turistik məkanlara səfər (Dəmirçi kəndi, Şamaxı Astrofizika Rəsədxanası,Çuxuryurd gölü Şamaxı Tarix-diyarşünaslıq Muzeyi və.s)









Tədris Mərkəzinin idman-sağlamlıq kompleksindən istifadə

İntellektual və əyləncəli oyunlar
3 dəfə Qidalanma

Tədris Mərkəzinin müasir tipli yataqxanasında gecələmək.